

## RƏHMAN BAYRAM

### ALLAHDIR

Kasıblıq nə vaxtdan günah olubdur?
Ruzini insana verən Allahdır.
İstəsə ucaldar göylərə səni,
İstəsə torpağa sərən Allahdır.

Bir dilənçi gördüm, varlıydı bir vaxt,
İndi kasıblara əl açır bədbəxt,
Bir anda insanı xoşbəxtdən xoşbəxt,
Bir anda dərdlərə sürən Allahdır.

Məzluma verdiyin kədəri ahı,
Gözündə qaralan nurlu sabahı,
Sən savab saydığın neçə günahı,
Kimsə görməsə də, görən Allahdır.

Yoxdan var elədi bütün cahanı,
Hünərin var, yarat bir qarışqanı,
Memarı olduğu ali insanı,
Sevincdən, kədərdən hörən Allahdır.

Varlıya pul verir, üstündə də dərd,
Kasıba saf niyyət, halal bir zəhmət,
Onu sevməyənə zülm, məşəqqət,
Sevənə cənnəti verən Allahdır.

İlahi sevgiylə dindir Rəhmanı,
Tanrını sevməkçün dərk et "Quran"ı.
Ömür əmanətdir, verdiyi canı,
Yetişmiş meyvə tək dərən Allahdır.

### OLMASA

Hər naxışdan buta olmaz, ay ellər,
Hər günaha əta olmaz, ay ellər,
Hər kişidən ata olmaz, ay ellər,
Ailəsi başına bir tac olmasa.

Mərd kişilər heç öyərmi özünü?
Üzə söyləyərlər sözün düzünü,
Götürməz namərdin acı sözünü,
Övladları ona möhtac olmasa.

Can yanmasa, gözlərdən yaş çıxarmı?
Göylər qaralmasa şimşək çaxarmı?
El Rəhmana loğman kimi baxarmı?
Dərmanı dərdlərə əlac olmasa.

### OĞLUM

Haqqı tapdamasan, ömür bağında,
Tanrı yasəmənlər bitirər, oğlum.
Bərk yapışsan vicdan adlı mələkdən,
O səni cənnətə götürər, oğlum.

İstər müəllim ol, istər həkim ol,
İstər mühəndis ol, istər hakim ol.
Nəfsinə qul olma, ona hakim ol,
Ömrünə şərəf, şan gətirər, oğlum.

Rəhmanam, mən tapdım haqqda yaxşını,
Qul etmə yamana, Yarəb, yaxşını,
Yaxşı insan, yaxşı oğul yaxşını,
Nəsildən-nəsilə ötürər oğlum.

## MƏNƏ

Bir ahu gözlüylə gəldim üz-üzə,
Füsunkar gülüşü can verdi mənə,
Məsum baxışları, nurlu camalı,
Zülmətləri söküb dan verdi mənə.

Təşnə ürəkləri viran eyləyən,
Varlığımı çapıb talan eyləyən,
Cümlə aşiqləri heyran eyləyən,
Lalə yanağıdan qan verdi mənə.

Siyah tellərinin qurbanı oldum,
Küskün ədasının heyranı oldum,
Sevgi baxçasının mehmanı oldum,
Halal süfrəsindən nan verdi mənə.

Eşqin atəşindən könlüm qor olub,
Rəhmanam, özgəyə gözüm kor olub.
Milyonlar içində mənə vurulub,
Şöhrət verdi mənə, şan verdi mənə.

## QOCALAR EVİ

Kimsəli tənhalar artırsa hər il,
Böyük bir millətə deyilmi ləkə?
Atılmış kəlməsi yad olub bizə,
Bu millətin qanı qarışıb bəlkə?

Qocalar evində qısılıb küncə,
Ahıl bir ananı ağlayan gördüm.
Naləsi içində, ahı içində,
Dərdli könülləri dağlayan gördüm.

Danışdı, unutdum mən öz dərdimi,
Sanki məhvərindən yer silkələndi.
Yavaşca bir kağız basdı ovcuma,
Oxudum, gözümdə yaş gilələndi.

Olmasın xəbəri övladlarımın,
Ölsəm dəfn eləyin kimsəsiz kimi.
Dünyaya üç övlad bəxş edən ana,
Tərk edir dünyanı kimsəsiz kimi.

Budumu anaya sevgi, məhəbbət?
Dərdinin üstünə dərd nə gərəkdir?
Allah əvəzini çıxacaq əlbət,
Birinin yerinə dörd verəcəkdir.

Dünyada müqəddəs, təmiz nə varsa,
Yerdə ata-ana, göydə Allahdır.
Cənnət ayaqları altındadırsa,
Anaları atmaq böyük günahdır.

## AHILLAR GÜNÜNÜZ MÜBARƏK OLSUN

Öpürəm ağaran tellərinizdən,
Xəfifcə titrəyən əllərinizdən,
Bala, nəvə deyən dillərinizdən,
Ahıllar gününüz mübarək olsun.

Qocalıq, tənhalıq deyildir günah,
Təki könlünüzə yar olsun Allah,
Qəmgin çöhrənizə nur səpsin sabah,
Ahıllar gününüz mübarək olsun.

Kövrək qəlbinizə dərman olaram,
Dərdləri əridən loğman olaram,
Yol çəkən gözlərə qurban olaram,
Ahıllar gününüz mübarək olsun.

Nadanlar yadına salmasa belə,
Dövlət darda qoymaz kimsəsizləri.
Rəhmanam, insanlıq ölməyib hələ,
Ahıllar gününüz mübarək olsun.

## MÜƏLLİM

Məktəbə ilk qədəm qoyana qədər,
Gözlüykən həyatda biz kor olmuşuq.
Müəllim zəhməti getməmiş hədər,
Günəşin nurundan işıq almışıq.

Mükafatın saçlarına düşən dən,
Yorulmadın, usanmadın zəhmətdən,
Elə razıyıq ki, uca Rəbbidən,
Öyrənə-öyrənə yaşa dolmuşuq.

O qara saçlarda ağaran tellər,
Çıxarıb ağ günə neçə insanı.
Ana nəvazişi, ata qayğısı,
Yetər yaşatmağa bütün cahanı.

Yanan şama bənzər müəllim ömrü,
Əriyib nur saçır xoş gələcəyə.
Pay verir ömründən, özü bilmədən,
Həyat yollarında yüksələk deyə.

## ANA - VƏTƏN

Qürbətin hər fəsli olsa da bahar,
Vətəni yadıma salmayımmı bəs?
Həsrətdən saçına ələnəndə qar,
Ana qayğısına qalmayımmı bəs?

Ey Vətən, anam tək əzizsən mənə,
Odur ki, könüldən vurğunam sənə.
Sənin zəfərinə, sənin eşqinə,
Nəğmə qoşub ilham almayımmı bəs?

Kök salıb əbədi geniş sinəmdə,
Sənin ana qəlbin, ata eşqin də,
Bir an Vətənimdən ayrı düşəndə,
Bulud tək boşalıb-dolmayımmı bəs?

Olmuşam vurğunu saf təbiətin,
Həm sadiq dostluğun, həm məhəbbətin.
O qədər çəkmişəm Vətən həsrətin,
Vüsal nəğməsini çalmayımmı bəs?

Gəzib dolansam da bütün dünyanı,
Unutmaq mümkünmü Azərbaycanı?
Gətirib ilhama eşqin Rəhmanı,
Eşqinlə zirvədə olmayımmı bəs?

## "BAŞ SARITEL" ÇALINANDA

Bəşər saz üstdə köklənir,
Fəsil yaz üstdə köklənir,
Könlüm söz üstdə köklənir,
Təbiətdən zövq alıram,
Baş sarıtel çalınanda.

İlhamımdan söz ələnir,
Xatirələr çözələnir,
Köhnə sevda təzələnir,
İlk eşqi yada salıram,
Baş sarıtel çalınanda.

Gah sevdirir, sevindirir,
Gah ağladır, gah güldürür,
Gah coşdurur, düşündürür,
Şirin xəyala dalıram,
Baş sarıtel çalnanda.

Telli sazın bu sehri nə?
Salıb Rəhmanı sehrinə,
Yaradanın bu sehrinə,
Düzü, məətəl qalıram,
Baş sarıtel çalınanda.

## SƏNİ SEVƏCƏYƏM ÖLƏNƏ KİMİ

Dərdin sevincimə şikar olaydı,
Taleyin üzünə gülənə kimi.
Sənli yuxularım aşkar olaydı,
Həsrət xəbər tutub gələnə kimi.

Sevdalı könlümə hökmran idin,
Sevgi damarımda axan qan idin,
Yaman həlim idin, mehriban idin,
Kasıb olduğumu bilənə kimi.

Sol tərəfin məndən uzaq olsa da,
Vüsalın əl çatmaz bir dağ olsa da,
Bəxtim bara həsrət bir bag olsa da,
Səni sevəcəyəm ölənə kimi!

